# Kamal Abdulla

## *Qar*

***Əbdürrəhimbəy Haqverdiyevin xatirəsinə***

Qış qurtardı, yaz gəldi, qar yenə yağmadı ki, yağmadı. Həsən əmi qışdan bəri elə hey deyinib durmuşdu:

– Qar hökmən yağmalıdı. Adamın gözü qar görməlidi. Yoxsa olmaz.

– Həsən əmi, ay Həsən əmi, qar yağacaq? – Həyətdə gözlərindən cin çıxan qonşu uşaqlar yaşı ötmüş, dizləri taqətini, gözləri itiliyini itirmiş bu qoca kişinin arxasınca gülüşə-gülüşə qaçaraq həmişəki suallarını yağdırdılar.

– Yağacaq, hökmən yağacaq… Keçən il də yağmadı. Bu il hökmən yağacaq.

Dodaqaltı, öz-özü ilə danışa-danışa Həsən əmi həyəti keçib küçəyə çıxdı, dalına düşüb qaçışan uşaqları o dəqiqə unudaraq, üz tutdu yaxınlıqdakı məhlə bazarının içindəki balaca, rahat, söz-söhbətli çayxanaya. Bu çayxana ona ikinci evi kimiydi.

Yolboyu rast gəldiyi adamlar, tanıdı, tanımadı, saxlayıb eyni sualı Həsən əmiyə verir, eyni arxayın və ümidli cavabı da ondan alırdı:

– Qar yağacaq, Həsən əmi?

– Yağacaq, mütləq yağacaq, get, xətircəm ol…

Eyni sual və eyni cavab artıq nə zamandan bəri hər gün, hər saat beləcə təkrar olurdu. Amma bu, Həsən əmini qətiyyən hövsələdən çıxarmır və Həsən əminin təmkinini zərrəcə pozmurdu. Hər dəfə cavab verməzdən əvvəl Həsən əmi gözucu da olsa, üzüyuxarı – göyə tərəf diqqətli bir baxış atır, bununla verdiyi cavabın doğru-dürüstlüyünü sanki yoxlamış olurdu.

Çayxanada Həsən əminin öz məxsusi yeri var idi. Keçib asta-asta öz yerinə əyləşər, armudu stəkanda qabağına gələn çayın isti-soyuqluğunu dodağı ilə

yoxlayandan sonra nəlbəkiyə qaytarıb qoyar, bundan sonra başını qaldırıb ətrafına nəzər salardı.

– Salam, Həsən əmi.

– Həsən əmi, necəsən?

– Qar yağacaq, Həsən əmi?

Həsən əmi ordan-burdan ona ünvanlanan bu “qar yağacaq?” sualından qətiyyən inciməzdi. Eyni sualı ona dörd tərəfdən yağdıranlar, bəlkə bunu bilmirdilər ki, gün ərzində Həsən əmi artıq yüz dəfə, min dəfə bu suala eyni cavabı verib. Bunu bilmədiyindən hər soruşan sualını təzə sual kimi soruşurdu. Qarın yağıb-yağmayacağı məsələsi Həsən əminin gözə görükməsilə, demək olar ki, eyni vaxtda adamların beyninə girir, onları düşündürməyə başlayırdı. Başqa bir vaxt “qar” söhbəti heç kimi maraqlandırmırdı. Uzun illər bu belə olmuşdu, bu gün də beləydi.

Onu da demək lazımdır ki, bu şəhərə artıq beş il olardı ki, qar yağmaq bilmirdi. Soyuq, şaxta düşürdü, tufan qopurdu, hətta ağacları kökündən qoparan küləklər əsirdi, amma qar… qar yağmırdı. Həsən əminin “yağacaq, qar hökmən yağacaq” sözlərinin hər biri kompasını itirib okeanda azmış gəmilər kimi öz sahilini axtara-axtara qalmış və vurnuxurdu. Bu sözlər qarı yağmayan qışdan üstü-başı tərtəmiz çıxıb isti yay günlərinədək gəlib özünü çatdırırdı. Adamlar öz həmişəki suallarını artıq təkcə qışda yox, yayda da verməyə başlamışdılar. Onları, bəlkə də başa düşmək olardı. Beş il qar üzü görməmək asan məsələ deyildi. Bu adamlar elə bil çox vacib nəyisə salıb qeyb eləmişdilər. Nəfəsləri kəsilə-kəsilə qalmış, ciyər dolusu havanı içlərinə çəkə bilmirdilər. Gözləri yorğun və mənadan xali baxışların qəbiristanlığına dönmüşdü. Səbəbsiz-filan hamı kəmfürsət olmuşdu, boş-boşuna darıxır, boş-boşuna hövsələdən çıxır, bircə anın içində sir-sifətlər qapqara qaralır, adamlar bir-birini acılayır, heç nədən bir-birini günahlandırırdılar. “Qar” söhbəti isə onlari güldürür, şənləndirir, bütün acılarını lağ obyektlərinə yönəldirdi.